

BY AMAPOLA

# GÜL KOMPOZİSİYALARI VƏ BUKETLƏR KATALOQU

*Buket | Açıqca | Qayğı təlimatı | Keyfiyyət nişanı | Stiker | Paket*












## *Buket | Fəlsəfə | Qayğı təlimatı | Keyfiyyət nişanı | Stiker | Paket*












*Buket | Stereotip | Qayğı təlimatı | Keyfiyyət nişanı | Stiker | Paket*












## *Buket | Hekayə | Qayğı təlimatı | Keyfiyyət nişanı | Stiker | Paket*












*Kompozisiya dəsti*





# QIRMIZI QAMMA

Bütün dövrlərdə qırmızı rəng özündə bir çox xüsusiyyətləri birləşdirmişdir. O, bir tərəfdən alov, təhlükə qan həyəcan, ekstrim, digər tərəfdən isə enerji mənbəyi, sevgi, çılğınlıq və ehtiras sayılıb.
Lakin o, həmişə hər cəhətdən cəsarətli və canlı bir rəng sayılaraq inam və güc rəmzi hesab olunur.
Qırmızı rəngə məxsus cəhətlər yaxşı yadda saxlanmalı və bütün kompozisiyalar kontekstində elə istifadə olunmalıdır ki, alıcıda bizim görmək istədiyimiz məmnunluq hissini oyada bilsin .

Deyilənə görə, qırmızı rəngə üstünlük verən insan — enerjili, seksual, şən, çılğın, fəal, ehtiraslı, lider xasiyyətli, aqressiv, həyəcanlı, isti, vətənpərvər, mübariz, narahat, gərgin, günahkar, ədavətli, kinli, qəzəbli, emosional, məqsədyönlü və ekstrimə, üsyana meyilli olur.

Faydalı məsləhət . Qırmızı rəng çox iddialı olduğundan, ondan ehtiyatla istifadə etmək və çiçəyin özünün ensiklopediyadakı xüsusiyyətlərini mütləq nəzərə almaq məsləhət görülür.
Yox, əgər siz mütləq izdihamdan seçilmək istəyirsinizsə, onda qırmızı rəng sizin üçün əla seçimdir.

# AL QIRMIZI

Kod adı: R1M







Kod adı: R1S




Kod adı: R1L

MƏRCAN




Kod adı: R2M




Kod adı: R2S




Kod adı: R2L

# MARSALA




Kod adı: R3M




Kod adı: R3S




Kod adı:R3L

# SARI QAMMA

Sarı rəng demək olar ki, hamı tərəfindən yaxşı qəbul edilir və ətrafa istilik yayaraq, işıq saçan günəş şüalarına bənzədilir. İnsan təxəyyülündə xoşbəxtliyin və təbəssümün rəngi, dərk etməyimizdən asılı olmayaraq sarı rəng sayılır.

Sarı rəng xoş, dostsevər və mehribanlıq kimi qəbul edilir. O, insanın emosional sferasına təsir edərək, onda əyləncə, səadət, şənlik, nikbinlik və özünə inam hissi yaradır. Sarı, eyni zamanda, hakimiyyət rəmzi sayılaraq, tonus və gümrahlıq da yarada bilir.

Deyilənə görə, sarı rəngə üstünlük verən insan — söhbətcil, cəsarətli, ziyalı, şən, qonaqpərvər, cəsur, nəcib, qəlbi həmişə gənc, gülərüz, dostsevər, enerjili, intuisiyası və intellekti güclü, qərar qəbul etməyi bacaran, xoş simalı, təhlükəsiz, məqsədyönlü, həyatsevər, güclü, mənəviyyatca zəngin , sağlam, haylı-küylü ; həm də —qorxaq, aqressiv, xain, qısqanc, paxıl, təkəbbürlü və zəhlə tökən ola bilir.

Faydalı məsləhət. Nikbin notlarına görə sarı ən uğurlu rənglərdən biridir, lakin ehtiyatlı olun — sarının bəzi çalarları çox sadə və bəsit görünə bilər. Həm də nəzərə alın ki, sarıdan bol istifadə kompozisiyanı korlayaraq alıcının özünə olan hörmətini azalda bilər.

Eyni zamanda unutmayın ki, sarı rəng bəzi hallarda qorxaqlıq, həyasızlıq və irrosionallıqla əlaqələndirilə bilər.

Adətən bu rəng pessimistlər və qapalı şəxsiyyətlər tərəfindən bəyənilmir.

## SOLĞUN SARI




Kod adı: Y1M




Kod adı: Y1S




Kod adı: Y1L

## LİMON




Kod adı: Y2M




Kod adı: Y2S




Kod adı: Y2L

## YAĞ RƏNGİ

Kod adı: Y3M







Kod adı: Y3S

Kod adı: Y3L



# **YAŞIL** QAMMA

Yaşıl — təbiətin rəngidir. O, gözləri yormur, şüuraltında təbiətlə vəhdət yaradır və buna uyğun olaraq rahatlıq, inam, tarazlıq hissini yaradaraq insanın ekoloji şüurunu oyadır.
Yaşıl rəng bir anda iki tamamilə əlaqəsiz xəttin yaranmasına səbəb olur: bu, bir tərəfdən təravət, təbiilik, dirçəliş, yenilənmə, oyanma, bəsirət, intuisiya, həyat gücü, canlılıq və ətraf mühitə uyğunluq, digər tərəfdən — pul, prestij, zənginlik və bolluq sayılır.
Yaşıl - ətraf mühit müəssisələri üçün yaxşı bir rəng sayılaraq, istənilən kompozisiyaya lazım olan notu vurğulaya bilər.

Deyilənə görə, yaşıl rəngə üstünlük verən insan — səmimi, insaflı, çox da tələbkar olmayan, qənaətcil, sülhsevər, yumşaq, əsəbləri sakit, dərrakəli, təmkinli, ayıq düşüncəli, mehriban, sağlam, qayğıkeş, həyatsevər, şən, faydalı, fəal, bacarıqlı; həm də —
cavan, təcrübəsiz, hisslərini bildirməyi bacarmayan, ümidlərlə yaşayan olur.

Faydalı məsləhət. Nəzərə almaq lazımdır ki, bəzi hallarda yaşıl rəng həsrətlə, kədərlə əlaqələndirilə bilər ( "yaşıl kədər" ifadəsini xatırlayın).
Yaşıldan həddsiz istifadə şüuraltında tərəqqinin və inkişafın olmaması nəticəsində yaranan durğunluqdan xəbər verir.

## MEŞƏ YAŞILI




Kod adı: G1M




Kod adı: G1S




Kod adı: G1L

## NANƏ RƏNGİ

Kod adı: G2M







Kod adı: G2S




Kod adı: G2L

## ZEYTUN RƏNGİ



Kod adı: G3M



Kod adı: G3S



Kod adı: G3L

# ÇƏHRAYI QAMMA

Çəhrayı rəngin ən qeyri-ciddi rənglərdən biri olması ilə bağlı fikir indi artıq unudulub.
Qırmızının bir çaları sayılan bu rəng də insan fiziologiyasına öz təsirini göstərir. Lakin bu rəng qırmızıya nisbətən daha çox sakitləşdirməyə meyillidir.
Çəhrayı rəng yaxşı mənada insan psixikasına güclü təsir edir. Nəsil vermə və təlim-tərbiyə ilə əlaqələndirildiyindən, onu qadın rəngi də adlandırırlar.
Çəhrayı çalarlar palitrası o qədər müxtəlifdir ki, hər biri ayrı-ayrılıqda nəzərdən keçirilməyə layiqdir: solğun çəhrayı - zəriflik, yumşaqlıq, şirinlik, rahatlıq, mehribanlıq, kövrəklik, həssaslıq və intim münasibətlər ; tozlu çəhrayı – sentimentallıq və ali sevgi; parlaq çəhrayı – romantiklik və heyrət; turş çalarlar isə gənclik, xoşbəxtlik və həyatsevərlik rəmzi sayılır.

Deyilənə görə, çəhrayı rəngə üstünlük verən insan — çox zaman təbiətcə yumşaq, mülayim, incə, zəif iradəli, infantil, xəyalpərəst və rahatlıq sevən olur.

Faydalı məsləhət. Çəhrayı çalarları alıcıda yaratmaq istədiyiniz təəssürat əsasında seçin. Auditoriyanız təkcə qadınlardan deyil, eyni zamanda kişilərdən ibarət olsa belə cəsarətlə bu rəngdən istifadə edə bilərsiniz. Lakin bir qədər ehtiyatlı olun.
Bol çəhrayı rəng qarşınızdakını fiziki cəhətdən zəif sala bilər .

## MAGENTA

Kod adı: P1M







Kod adı: P1S

Kod adı: P1L



# QƏHVƏ




Kod adı: P2M




Kod adı: P2S




Kod adı: P2L

# ŞAFTALI ÇIÇƏYI




Kod adı: P3M




Kod adı: P3S




Kod adı: P3L

# NARINCI QAMMA

Narıncı rəng qırmızı və sarının birləşməsi olduğundan, dolğun həyat hissləri sayılan sevinc, səadət, istilik, nikbinlik və rahatlıqla əlaqələndirilir.
Portağal və yerkökü də bu rəngdə olduğundan, onu sağlamlıq və gənclik rəmzi də saymaq olar.

Deyilənə görə, narıncı rəngə üstünlük verən insan — cavan, həyatsevər, dostsevər, işıq saçan, fəal, məqsədyönlü, xəyalpərəst, təmkinli, güclü intuisiyaya malik, cəsarətli, cəsur, mərd, isti təbiətli, maraq dairəsi geniş, söhbətcil, xeyirxah, ambisiyalı, qürurlu, kreativ, bir qədər təhlükəli, yumor hissli, macəralara meyilli olur.

Faydalı məsləhət. Narıncı rəng gənclik və yeniliklərlə çox bağlı olduğundan, VIP – lər , ciddi fəaliyyətlə məşğul olan luxury-seqmentlər və şirkətlər üçün uyğun olmaya bilər. Bu rəng laqeydlik və ciddi intellektual dəyərlərin yoxluğu ilə də əlaqələndirilə bilər.

YERKÖKÜ




Kod adı: 01M




Kod adı: 01L




Kod adı: 01S

## TERRAKOTA

Kod adı: O2L







Kod adı: O2S




Kod adı: O2M

KƏHRƏBA




Kod adı: O3M




Kod adı: O3S




Kod adı: O3L

# GÖY QAMMA

Təbiətdə səma və dəniz göy rəngdə olduğundan, bu rəng çox zaman sakitlik, əmin-amanlıq, rahatlıq, stresin və həyəcanın aradan qaldırılması ilə əlaqələndirilir.
Parlaq mavi və göy çalarlar beyinə stimul verərək onu aktivləşdirir, parlaq olmayanlar – diqqəti cəmləməyə və konsentrasiyaya xidmət edir.
Göy rəng — etibarlılığın, dürüstlüyün, ünsiyyətcilliyin, açıqlığın, məsuliyyətin, intellektin, saflığın və ekstazın əlamətidir.
İngilisdilli auditoriya üçün bu rəng depressiyanı ifadə edə bilər, çünki ingilis dilində «to be blue» «qəmli olmaq», «kədərlənmək» mənasını verir.

Deyilənə görə, göy rəngə üstünlük verən insan mülayim, sakit, təvazökar, zirvələrə ucalan, daxili dünyası və mənəviyyatı zəngin, xoşa gələn, dinc, etibarlı, melanxolik, özünə hörmət edən, işdən qorxmayan, kamil, rahat, həm də soyuqqanlı və kədərə meyilli ola bilər.
Faydalı məsləhət. Göy çalarlar palitrası müxtəlifdir, odur ki, diqqətli olun — alıcını ümidsizliyə düçar edən deyil, gözəl duyğular oyadan çalarlar seçin.
Mavi rənglər maliyyə işləri ilə əlaqələndirildiyi üçün, ondan biznes fəaliyyətində geniş istifadə olunur.
Göy və ya mavi rənglərdən istifadə edərək kompozisiyalar hazırlayarkən, onun soyuqluq, laqeydlik və hisslərin olmaması ilə əlaqəli ola biləcəyini nəzərə almaq lazımdır.

## TÜND GÖY




Kod adı: B1M




Kod adı: B1S




Kod adı: B1L

# DƏNIZ DALĞASI




Kod adı: B2M




Kod adı: B2S




Kod adı: B2L

## MAVİ




Kod adı: B3M




Kod adı: B3S




Kod adı: B3L

# BƏNÖVŞƏYİ
# QAMMA

Bənövşəyi rəng kosmos, ruhi aləm, zaman, məkan və yaradıcılıq anlayışları ilə birləşdiyindən, insanı yüksək təfəkkürə və meditasiyaya səsləyir. Çox vaxt bu rəngi var-dövlət və zənginliklə əlaqələndirirlər.
Hesab edirlər ki, buna səbəb – insanın beynində müvafiq vibrasiya ilə rezonansa girən bənövşəyi dalğanın uzunluğudur.
Bənövşəyi palitra kifayət qədər neytral emosiyalar doğurur. Bu dərin rəng çalarları əzəmət və sirr atmosferi yaradır və beləliklə də, yasəmən, lavanda və ametist rəngləri incəliyin və sentimentallığın rəmzi kimi ifadə olunur.
Deyilənə görə, bənövşəyi rəngə üstünlük verən insan yaradıcı, nostalji hisslərə, melanxoliyaya, kədərə, xatirələrə, tənhalığa və ümidsizliyə meyilli olur; gücü, qüruru,ruhi zənginliyi, təfəkkürü, emosionallığı, düşüncələrinin mühafizəkarlığı və nəcibliyi ilə seçilir; eyni zamanda özündə gecə qaranlığı ilə, matəmlə, təmtəraqla bağlı qəribə bir mistika daşıyır.
Qırmızı-bənövşəyi tonlarla doymuş çalarlar, incəlikdən, unikallıqdan, zərif münasibət arzusundan , romantiklikdən, həyəcandan, ehtirasdan və hətta hiyləgərlikdən xəbər verir.
Faydalı məsləhət. Araşdırmalar bənövşəyi rəngin qadın auditoriyasına daha uyğun olduğunu göstərir. Tanınmış brendlər üçün bu rəngə çox az müraciət edirlər, çünki ondan bir qədər artıq istifadə özünə inamsızlıq və depressiya hissləri yarada bilər.
Bu rəng palitrası mənəviyyata yönələn çiçək kompozisiyalarının hazırlanmasında istifadə olunur. Eyni zamanda, bənövşəyidən yersiz istifadə alıcıya onun, "bahalı görünmək istəyən adi bir şey" olduğunu söyləyəcək.

**İNDİQO**

Kod adı: PR1M







Kod adı: PR1S

Kod adı: PR1L



YASƏMƏN

Kod adı: PR2M







Kod adı: PR2S




Kod adı: PR2L

## GAVALI




Kod adı: PR3M




Kod adı: PR3S




Kod adı: PR3L

# AĞ QAMMA

Ağ rəng — şəffaflıq, sadəlik, məsumluq, minimalizm və mükəmməllikdir.
Bu rəng saflıq və müqəddəslikdir, bu Mütləq nurdur!
Ağ rən sanki söyləyir — mənə toxunmayın!
O, barışmazlığında qara rəngə bənzəyir, lakin steril və gigiyenikdir. Qara rəngdə olduğu kimi, o da işıq dalğalarını tamamilə udur və sonra əks etdirir. Beləliklə, ağ da maneələr yaradır, lakin qaradan fərqli olaraq ağ çiçəklərə tamaşa etmək bir qədər çətin olur.
Ağ rəng vizual olaraq məkan qavrayışını artırır.
Bu rəng demək olar ki, hamının xoşuna gəlir, odur ki, onun interpretasiyası birmənalı deyil— ağ həm soyuq, həm də mənəviyyat və harmoniya mənalarını daşıyır.

Deyilənə görə, ağ rəngə üstünlük verən insan etibarlı, günahsız, sakit, ruhən zəngin olur; eyni zamanda o, özündə işıqla, qarla, qorxu ilə, sərinliklə, təmizliklə, aydınlıqla sakitliklə gəncliklə, kədərlə, boşluqla assosiasiya olunan hissləri daşıyır.
Faydalı məsləhət. Ağ rəngin mənfi xüsusiyyəti kompozisiyadakı isti rənglərə olan təsiridir. Həddindən artıq ağ isti rənglərin görünməsinə imkan vermir. İsti tonlu çiçək kompozisiyalarının tərtibi zamanı bunu nəzərə almaq vacibdir.
Ağ rəngi seçərkən, öz fərdiliyinizi vurğulamaq üçün hər cür səy göstərməli olacaqsınız.
Ən sadə obyektdə də qeyri-adi nəsə olmalıdır.

## BRİLLİANT

Kod adı: W1S




Kod adı: W1M







Kod adı: W1L

## AĞ TÜSTÜ




Kod adı: W2M




Kod adı: W2S




Kod adı: W2L

## KOKOS




Kod adı: W3M




Kod adı: W3S




Kod adı: W3L

# QARA QAMMA

Bu klassikadır!
Qara rəng insanın şüuraltına az miqdarda təsir edir. O, işığı əks etdirmir, qara - mahiyyətcə qaranlıq deməkdir . Bu rəng soyuqluq və sakitlik amilidir. Qara – sirr, gizli potensial və zehni diqqət üçün bir fon sayılır.
Bu palitra bir növ qoruyucu maneə yaradır, çünki o, mütləq aydınlığı ifadə edərək sizə yönəlmiş bütün enerjini özünə çəkir. Qara rəng ciddilik, bəzi hallarda yüksək mövqe, eksklüzivlik və dəbdəbə ilə əlaqəli üstünlüklərdən xəbər verir. Qərb mədəniyyətində qara matəm rəngidir, Şərqdə isə o, xeyirxahlıq, nəciblik və təcrübə rəmzi sayılır. Qara palitrası son dərəcə müxtəlifdir və çalarlardan asılı olaraq xarakterik assosiasiyalara malikdir. Məsələn , boz rəng neytral olaraq insan psixikasına birbaşa təsir göstərmir, amma eyni zamanda, uyğun kontekstdə istifadə olunduqda sıxışdırmağa qadirdir. O, bəzən rəngin yoxluğu kimi qəbul edilir, bəzən də mənfi duyğulara səbəb olur .

Deyilənə görə, qara rəngə üstünlük verən insan prestij sevən, güclü, eleqant, müəmmalı, emosiyasız, soyuqqanlı, nəcib, təmkinli, dözümlü olur; eyni zamanda o, özündə sükut, ümidsizlik, qəzəb və nifrət kimi hissləri də daşıyır. Əgər insan boz rəngə meyillidirsə, onda onu belə xarakterizə etmək olar: düşüncəli, ehtiyatlı, sakit, zəkalı, müstəqil, sarsılmaz, soyuq, laqeyd, qətiyyətsiz, sağlam düşüncəli, praktiki; depressiyaya, eqoizmə və yalana meyilli.

**BOZ**







Kod adı: BL1S

Kod adı: BL1M




Kod adı: BL1L

# FANTOM QARASI









Kod adı: BL2S

Kod adı: BL2M





Kod adı: BL2L

QARA




Kod adı: BL3M




Kod adı: BL3S




Kod adı: BL3L

S.E.N.S.U.M. BY AMAPOLA

info@sensum.az | www.sensum.az \ Ahmad Rajabli 2/29